***Allahın adıyla***

بسم الله الرحمن الرحيم

**Kitabın adı:..........................................Möhsün bəy**
**Müəllif:.................................Məhəmmədəli Cabiri**
**Tərcümə edən:..................................İbrahim Mirzə**
**Çap tarixi:...........................................................2023**
**Çap növbəsi:..................................................Birinci**
**Tiraj:...................................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 52-47-024519-52

# MÖHSÜN BƏY

**Məhəmmədəli Cabiri**

## Mündəricat

Giriş ........................................................................5
Möhsün bəy ...........................................................8
Raket ......................................................................10
Qeybət qadağandır ................................................12
Qoca ........................................................................15
Akvapark ...............................................................17
Qələbələr gecəsi ....................................................19
"Təxti-fulad" ..........................................................21
Qara köynək ..........................................................24
Futbol .....................................................................27
Hacı Əhmədin balası .............................................29
Azanın ortasında ....................................................31
Polis .......................................................................34
Sərin ayran .............................................................37
Hacı Əhməd ............................................................39
Su kondisioneri ......................................................42
Cərimə ....................................................................44
Təbiət günü ............................................................46
Könüllü yardımçılıq .............................................48
Partlayış dalğasına düşmüş uzunqulaq ..............51
Kərpic maşını .........................................................53
Oğluma ...................................................................55
Suallar ....................................................................57

# Giriş

12 İyul 1991-ci ildə İranda çoxlu oğlan uşağı dünyaya gəldi. Lakin onların yalnız biri 26 ildən sonra bütün xalqın qürur mənbəyinə çevrildi.

Möhsün Höcəci Nəcəfabad şəhərində dünyaya göz açdı, ömrünün sonuna qədər də orada yaşadı. Atası taksi sürücüsü, anası isə evdar qadın idi. Onların yanında böyüdü, onlardan din və əxlaq öyrəndi. O, həddi-bulağa çatmasını gözləməyib uşaqlıqda namaz və oruca başladı. Ata-anası ramazan ayında onu obaşdana oyatmayanda ac-acına oruc tuturdu. Quranı da çox tezliklə öyrəndi. Adətən məktəbdə sıra düzülüşündə hamının önündə Quran oxuyurdu.

Orta məktəbdə oxuyarkən Şəhid Kazimi müəssisəsi tərəfindən cəbhə bölgələrinə

ekskursiyaya yollandı. Qayıdandan sonra həmin müəssisə ilə əməkdaşlıq etmək qərarına gəldi. İlk günlərdə əlaqəsi çox da güclü deyildi, hətta bir müddət əlaqəni kəsmişdi də, amma sonra yenidən fəaliyyətlərə başladı. İmam Xamenei müəssisənin kitab oxumaqla bağlı təbliğatlarını yüksək dəyərləndirəndən sonra qərara gəldi ki, bütün imkanlarını kitab və mütaliənin təbliğinə yönəltsin.

Şəhid Höcəci tənbəllikdən qaçırdı. O, hərbi xidmətini Nəcəfabadda keçirə bilsə də, öz təklifi ilə Dezful qarnizonuna göndərildi. Hərbi xidmətdən sonra ailə qurdu, şəhadəti çox sevdiyinə görə bir müddətdən sonra pasdar fəaliyyətinə başladı. İŞİD Suriyaya hücum edəndən sonra isə yalvararaq adını Hərəm müdafiəsi könüllüləri siyahısına yazdırıb Suriyaya yola düşdü. O, ikinci dəfə Suriyaya göndəriləndən sonra, bazar ertəsi günü, 7 avqust 2017-ci ildə İŞİD terrorçuları

tərəfindən əsir tutuldu və iki gündən sonra şəhadətə qovuşdu.

# Möhsün bəy

Azana az qalırdı. İftar süfrəsi açmışdılar. Hamı bir-biri ilə söhbət edirdi, çoxlu səs-küy vardı. Birdən Möhsün içəri girdi. Kişilərin biri onun saqqalını göstərib ucadan dedi: "Bəh-bəh, Möhsün bəy!" Kişinin uca səsi hamının diqqətini cəlb elədi. Bütün baxışlar ona dikildi və hamı gülüşməyə başladı.

Möhsün bərbər salonuna gedib saç-saqqalını yeni üslubda düzəltdirmişdi. Bərbər onun bütün saqqalını qırxmış, yalnız dodağının altındakı tükdən bir barmaq bəndi qədər saxlamışdı. Qohum uşaqların gülüşləri arasında birdən atasının gözü Möhsünə sataşdı. Hər ikisi bir-birinə baxdı. Atası gülümsədi. Möhsün atasının baxış tərzindən anladı ki, düz iş görməyib və saqqal modeli uyğun deyil. Buna görə də iftardan sonra

sağollaşıb düz evə getdi, ata-anası qayıtmazdan qabaq güzgünün qabağında dayanıb saqqalının qalanını da qırxdı.

***

Möhsün yeniyetməliyindən bəri ata-anasının sözünün üstünə söz deməmişdi. Göstəriş də gözləməz, onların bir şey istədiklərini hiss edən kimi işə başlayardı. Onların təbəssüm və qaşqabaqlarının mənasını yaxşı bilirdi. Möhsün bilirdi ki, ata-anasının razılığı Allahın razılığına bərabərdir. Allahın razı qaldığı şəxs isə cənnətlik olar.

# Raket

Pasdar dostları ilə birlikdə Suriya xalqına köməyə getmişdi; insanları öldürməsinlər deyə İŞİD terrorçularına qarşı vuruşurdular. Bir gün digər döyüşçülərlə birlikdə Sabiqiyyə kəndini İŞİD-dən xilas etmək üçün əməliyyata qoşuldu. Bir neçə saatlıq döyüşdən sonra terrorçular kənddən çıxdılar. Möhsün dostuyla birlikdə tankını bir evin arxasında gizlədib yolun açılmasını gözlədi.

Düşmənin dayanmadan güllə və raket atdığı yerdə günorta namazının vaxtı oldu. Möhsün güllələrdən qorxmadan bir tərəfdə namaza başladı. İki pasdar onun belə bir zamanda namaz qıldığına etiraz etdi. Möhsün çox sakitcə dedi: "Mənimlə işiniz olmasın. Kim qorxursa, indi qılmasın".

Namazını bitirəndən sonra tankın içinə girdi, cib Quranını çıxarıb oxumağa başladı. O, Quran oxuduğu yerdə birdən önlərində toz-torpaq qopdu. Dostu ilə birgə tankdan bayıra çıxdı. Bir raket yerə batmış, amma partlamamışdı. Arxasından hələ də tüstü çıxırdı. Möhsün raketə baxıb gülə-gülə dedi: "Nə olardı ki, partlayaydın, biz də şəhid olaydıq!"

***

Xəstə dərmanını yaddan çıxarsa, sağalmaz. Polisin diqqəti yayınsa, oğrular insanların əşyalarını oğurlayarlar. Sürücünü yuxu tutsa, qəza törədər. Yolçu yolçu olduğunu unutsa, istədiyi yerə çata bilməz. Biz insanlar da bu dünyada yolçuyuq, Allaha doğru gedirik. Dünya məşğuliyyətləri bizə yolçu olduğumuzu unutdurur. Allah, Onu unutmayaq deyə, bizi gündə bir neçə dəfə namaz qılmağa çağırır.

# Qeybət qadağandır

Qərara gəlmişdilər ki, Hüseyn Möhsünə döyüş texnikasını öyrətsin, Möhsün də ona praktik əxlaqı. Hüseyn hər dəfə tankın bir hissəsini Möhsünə başa salırdı. Bir gün o, tankın arxasında bir hissəni açıb detallarını izah etdi, sonra üzünü Möhsünə tutub dedi:

– İndi sənin növbəndir.

– Şəhid və salehlərin Allahının adı ilə, – Möhsün qamətini düzəldib dedi. – Heç kimin arxasınca qeybət eləmə!

– Elə bu?

– Bu dərsin necə çətin olduğunu sabaha qədər anlayarsan.

Ertəsi gün Hüseyn öyrətdiyi hissəni açdı, Möhsünün gözlərini bağlayıb dedi:

– Cəld onu bağla.

Möhsünün işlədiyi yerdə Hüseyn detalların arasına bir əşya qoydu. Möhsün nə qədər etdisə, həmin əşyanın yerini tapa bilmədi. Hüseyn gülüb:

– Yox, dərsini yaxşı öyrənməmisən. Gözlərini aç, – dedi.

Möhsün gözlərini açanda həmin əşyanın tanka aid olmadığını gördü. Hüseyn dedi:

– Sən gərək onun buraya aid olmadığını biləydin.

– İndi dərs soruşmaq mənim növbəmdir, – deyə Möhsün güldü. – De görüm, qeybət etdin, yoxsa yox?

– Düzü, – Hüseyn mızıldadı, – nə qədər çalışdımsa, bacarmadım.

– Başqasının arxasınca danışmamağı öyrənməyincə təzə dərs yoxdur, – Möhsün dedi.

***

Dolçanın suyu yerə töküləndən sonra onu toplamaq olmur; hətta bir hissəsini yığmaq mümkün olsa da, daha əvvəlki kimi təmiz olmaz. Abır-etibar da su kimidir; töküləndən sonra yığmaq olmur. Qeybət, başqa sözlə desək, digərlərinin eyiblərini söyləmək onların etibarının ləkələnməsinə səbəb olur. Elə indicə

bir dəqiqəliyə kitabı bağla və fikirləş: Kiminsə səni biabır etməsini istəyərsənmi?!

# Qoca

İsfahanın Şəhid Səduqi xəstəxanasına təlimə getmişdi. Orada ilk tibbi yardım qaydalarını öyrənəcəkdi. Bir gün dostuna: "İstəyirsən, bu gün Allahın razılığından ötrü bir iş görək?" – dedi və cavab gözləmədən əlindən tutub bir palataya apardı. İçəridən çox pis qoxu gəlirdi. O, qoca bir kişini dostuna göstərib dedi: "Bədəni irinləyib; gəl, tibb bacısına kömək edək, yarasını yusun".

Tibb bacısı yaranı palatadakı maye ilə yumaq istəyirdi, ancaq Möhsün hirslənib qoymadı, tez aptekə gedib yaraya məxsus yuyucu ləvazimatı aldı, qayıdıb dostunun köməyi ilə qocanın bədənini yudu, dəsmalla quruladı və onu geyindirdi. Qocanın alnından öpüb palatadan çıxandan sonra

dostuna dedi: "Qiyamət günü bu qoca bizim xeyrimizə şəhadət verəcək. Əminəm ki, bu işin axirətdə bizə çox faydası toxunacaq".

***

Əkinçi məhsul əldə etmək üçün əvvəlcə toxumu əkir, sonra suvarır, toxumlar cücərəndən sonra bir neçə ay onlara qulluq edir, axırda məhsul yetişir. Həzrət Məhəmməd (s) buyurub: "Dünya axirətin tarlasıdır". Axirətdə əlimizin boş olmasını istəmiriksə, gərək dünyada yaxşı işlər görək. Yaxşı işlər görəndən sonra da gərək ehtiyatlı olaq ki, minnət qoymaqla və ya riya etməklə onları əldən verməyək. Əgər yaxşı işləri Allahdan ötrü görsək, onların mükafatı cənnət olar.

# Akvapark

Dostları ilə “Mavi dalğalar” akvapark və istirahət mərkəzinə getmək qərarına gəldilər. Biletləri axşam saat 8-dən 12-yə qədər idi. Möhsün axşam sosial şəbəkədəki qrupa belə bir mesaj yazdı: "Axşam saat 9-un yarısında namaz vaxtıdır. Dəstəmazımızı harada alacağıq?" Dostu Məcid yazdı: "Allahın adı ilə. Biz də müsəlmanıq. Sən gəl, orada bir küncdə namazımızı qılarıq". Möhsün razılaşmayıb dedi: "Yox, mən namaz qılmayınca gəlmərəm". Məcid dedi ki, əgər geciksən, gərək hamıya dondurma alasan. O da razılaşdı.

Möhsünün dostları düz saat 8-də içəri girib oynamağa başladılar. Məcid saat 9-da soyunma otağına gedib Möhsünü axtarmağa

başladı. O isə hələ gəlməmişdi. Bir neçə dəqiqədən sonra peyda olub dedi: "Çox xahiş elədim, xilasedicilərin otağında qılmağa icazə verdilər".

Qapıda demişdilər ki, içəridə balaca bir namaz otağı var, orada qılarsan. O isə razılaşmayıb demişdi: "Allahımın qarşısında münasib olmayan paltarda namaza dayanmaq istəmirəm".

***

İnsan böyük bir şəxsiyyətlə görüşməyə gedəndə ev paltarı geymir. Namaz Allahla danışmaqdır, Allah isə kainatın ən böyük varlığıdır. Bizim böyüklərimiz namazdan bir neçə dəqiqə öncə özlərini hazırlayırmışlar; ən yaxşı paltarlarını geyir, ətir vurur, canamazlarını sərib azan vaxtını gözləyirmişlər. Şəhid Mütəhhəri hətta evdə olanda da ev paltarı ilə namaz qılmaz, hər bir namaz üçün əmmaməsini başına qoyar, əba geyərmiş.

# Qələbələr gecəsi

İŞİD qüvvələri əl-Eys şəhərini ələ keçirmək qərarına gəlmişdilər. Onlar bütün imkanlarını toplayıb bir gecə çoxlu pikapla əraziyə səpələnib döyüşçülərə hücum etdilər. Hər iki tərəfdən dayanmadan atəş açırdılar, güllə və raket səsləri qulaq batırırdı. Həmin atəşlərdən bəzisi şəhid oldu, bəzisi yaralandı.

Möhsün T90 tankının içində idi, terrorçulara atəş açırdı. O, elə əvvəllərdə İŞİD-in üç Toyota pikapını partlatdı. Həmin gecə İŞİD qüvvələri bütün imkanları ilə şəhəri tutmağa gəlmişdilər, amma əliboş qayıtdılar. Sübh çağı general Süleymani zonanı gəzəndən sonra soruşdu: "Gecə kimlər tanklardan atəş açırdılarsa, əllərinə sağlıq! Çox möhtəşəm iş görmüşlər!"

Hacı Qasim Möhsünün və taqımının dəqiq atəşlərinə görə həmin gecənin adını "Qələbələr gecəsi" qoydu.

***

Haqla batil arasında döyüş həmişə olub, İmam Mehdinin (ə) zühuruna qədər də davam edəcək. Həzrət Adəmin yaranışından indiyədək haqq və batil ardıcılları bir-biri ilə vuruşmuşlar. Bu döyüşlərdə bəzən haqq tərəfdarları qələbə çalmışlar, bəzən də batil tərəfdarları. Əlbəttə, imanlı insanların məğlubiyyəti yalnız zahirdə olur, əslində isə, onlar həmişə qalibdirlər. Allah müsəlmanlara buyurur ki, şeytan ardıcılları ilə döyüşdə öldürülsəniz də, ölsəniz də, qalibsiniz; çünki onları öldürsəniz, Allah düşmənlərini öldürmüsünüz, kafirlər tərəfindən öldürülsəniz də şəhidsiniz və Allah yanında ən uca məqamlara sahib olacaqsınız.

# “Təxti-fulad”

Həmişəki işi idi: Hər həftə dostu ilə Nəcəfabaddan İsfahana yollanır, 30-40 km yol gedib “Təxti-fulad” məzarlığında dəfn olunmuş yaxşı insanları ziyarət edirdilər. “Şəhidlər gülzarı” məzarlığına və Şəhid Hacı Əhməd Kaziminin qəbrinə də baş çəkib ziyarət edirdilər. Bir dəfə dostu dedi:

– Bu həftə getməyək, çünki nə mənim pulum var, nə də sənin. Burdan İsfahana pulsuz getmək də düz deyil.

– Yox, İsfahan yaxındadır, motosikletimiz də sazdır. Uzaqbaşı bir şey yeməriik. Üstəlik, Allah Özü işimizi düzəldəcək. "Ya Əli" de, gedək, – deyə Möhsün cavab verdi.

İkisi bir motosikletə minib İsfahana yola düşdü. Təsadüfən, yolda motosiklet xarab oldu və Möhsünün dostu deyinməyə başladı:

– Demədim ki, bu dəfə getməyək?! İndi boş ciblə və xarab motosikletlə nə edəcəyik?

– Qəm eləmə, dost, bizi buraya qədər gətirən yolun qalanını da aparar, – deyə Möhsün soyuqqanlılıqla dilləndi.

Onlar danışdıqları yerdə yanlarında bir motosikletçi dayandı. Kişi beş dəqiqə çəkmədən motosikleti düzəltdi. Pul da istəmədi, yalnız bunu dedi ki, xahiş edirəm, atam üçün bir Fatihə oxuyun.

***

Allah həmişə yaxşı bəndələrinə göz qoyur, onlara kömək edir. Yaxşı insanlar problemlə üzləşdikdə Allah onlara yardım göstərir. Lakin Allahın yardımının şərti var: Gərək əvvəlcə öz vəzifələrimizi yerinə yetirək, sonra Allahdan yardım gözləyək. Bir gün bir nəfər dəvəsindən endi, onu bağlamadan: "Allaha tapşırıram" - deyib işinin ardınca getmək istədi. Məhəmməd

peyğəmbər (ə) ona buyurdu: "Əvvəlcə dəvəni bağla, sonra Allaha tapşır".

# Qara köynək

Bir müddət idi ata-anasını görmürdü. Hərbi hissə komandirindən icazə alıb Nəcəfabada yola düşdü. Maşında beyninə müxtəlif fikirlər gəlirdi: Hərbi xidmət nə vaxt bitəcək? Nə vaxt ailə quracaq? Kiminlə ailə quracaq?.. Bütün bu fikir və xəyallar arasında İmam Mehdini (ə) xatırladı, fikirləşdi ki, onu necə sevindirə bilər.

Orada niyyət etdi ki, evə çatanda ata-anasının əlindən öpsün. Çətin idi, çox utanırdı. Evə yaxınlaşdıqca ürəyinin döyüntüsü artırdı. Şeytan onun ürəyinə salırdı ki, bu işdən vaz keç, amma o, qərarını vermişdi. Evə çatan kimi əvvəlcə anasına yaxınlaşıb əlini öpdü; sonra da təvazökarlıqla əyilib atasının əlini öpdü.

Gecə yatanda çox sevinir, İmam Mehdinin (ə) təbəssümü barədə düşünürdü. Uzandığı yerdə yenə fikrə getdi, öz-özünə dedi ki, kaş Allah işinin mükafatını verəydi. Bu fikirlə onu yuxu tutdu. Gecənin yarısı yuxuda gördü ki, anası İmam Hüseyn (ə) əzası üçün geydiyi qara köynəyini göstərib deyir: "İnşallah, sən şəhid olanda bu qulluqçu paltarını mənə gətirərlər". Möhsün də ürəkdən cavab verdi: "İnşallah".

***

Adamın corabında və ya ayaqqabısında xırda bir daş olanda hərəkəti çətinləşir, zəifləyir. Bəzi şeylər də balacadırlar, amma insanı Allah yolundan, yaxşılıqlara doğru hərəkətdən saxlayırlar. Onların biri də ata-anaya qarşı mehriban olmamaqdır, "uf" deməkdir. Yadımızda qalsın ki, heç bir ata və ana övladının düşməni deyil. Onlar bəzən bizə qarşı tələbkar ola, bəzi istəklərimizi yerinə yetirməyə bilərlər, amma heç

şübhəsiz, təcrübələri bizdən çoxdur və bizim xeyrimizi istəyirlər.

# Futbol

Bir neçə saat işləmiş, çox yorulmuşdu. Hərbi hissədən çıxıb piyada evə yola düşdü. Hələ bir neçə addım uzaqlaşmamış dostunun maşını yanında dayandı. Maşına minib dostuyla deyib-gülməyə başladı. Küçələrin birində maşının altında bir top qaldı. Möhsün təkərin altından çıxan top səsini eşidən kimi dostuna: "Sağa çək" – dedi. Özü tez maşından düşdü, kənarda dayanmış balaca oğlana yaxınlaşdı. Oğlan çox narahat halda cırılmış topuna baxırdı.

Möhsün oğlanın başını tumarlayıb dedi:

– Narahat olma, dostlarınla başqa bir oyun oyna, mən sənə top gətirəcəm.

Qayıdıb maşına mindi və yola düşdülər. Bir qədər gedəndən sonra bir top mağazası

tapıb uşaqlara iki top aldılar. Qayıdanda dostuna dedi:

– Çox yaxşıdır ki, bəzi uşaqlar hələ də kompüter və telefon oyunlarının yerinə topla oynayırlar.

Möhsün topları uşaqlara verəndən sonra dostu dedi:

– Afərin!

– Afərinə ehtiyac yoxdur, – deyə Möhsün cavab verdi. – Sən də öyrən və belə işlər gör.

***

İmam Mehdi (ə) öz əsgərlərini güclü insanlardan seçir. Kim onunla kafir və zalımlara qarşı vuruşmaq istəyirsə, özünü gücləndirməlidir. İnsanın bədəni həqiqi idmanlarla güclənir, kompüter oyunları ilə yox. Məhz buna görə İmam Xamenei uşaq və yeniyetmələrə deyir ki, idman edib həm bədənlərini gücləndirsinlər, həm də boş vaxtlarını doldursunlar.

# Hacı Əhmədin balası

Kirayə ev axtarırdı. Dostuyla birlikdə çox evə baxdı, hərəsini bir bəhanə ilə bəyənmədi. Bir evdə dostu çox dedi ki, bu evin problemi yoxdur, sənin səbəbin məntiqi deyil; o isə razılaşmadı. Bu evdən o evə, o evdən bu evə gedəndən sonra dostu hirslənib dedi:

– Bizi əldən saldın, oğlan! Məgər bir-iki günə sənin toyun olmayacaq?! Bəs niyə bu qədər bəhanə gətirirsən? Niyə belə yaxşı evləri bəyənmirsən?

– Ay Hacı Əhmədin balası,[1] – Möhsün dostuna dedi, – baxdığımız evlərin sakinləri namaz qılmırdılar. Mən namaz qılınmayan evdə heç vaxt yaşamaram.

---

[1] Şəhid Hacı Əhməd Kazimi 2005-ci ildə şəhadətə qovuşmuş böyük komandirlərdən biridir. Şəhid Höcəci onu çox sevdiyinə görə xətrini çox istədiyi adamları belə çağırırdı.

– Sən hardan bilirsən ki, o evlərdə namaz qılınmır? Niyə bu qədər bədbinsən? – deyə dostu soruşdu.

– Bədbin deyiləm. Bütün ev sahiblərindən soruşdum ki, orada namaz qılırdılar, yoxsa yox. İndi bildin ki, niyə evlərin heç birini bəyənmədim?!

***

Günəş üzü görməyən ev rütubətli olar, get-gedə oradan pis qoxu gələr və yaşamağa münasib olmaz. Sakinləri namaz qılmayan, Allahla əlaqəni kəsən ev də şeytanların gedib-gəldiyi yer olar. Şeytanların girdiyi yerə isə mələklər girməzlər.

# Azanın ortasında

Ramazan ayı idi. Məşhəd şəhərinin havası çox istiləşmişdi. “Azadlıq” həyətinə çatanda Möhsün qapını öpdü, əlini sinəsinə qoyub İmam Rzaya (ə) salam verdi, sonra da ata-anasının arxasınca məqbərəyə girdi. Ailəliklə hovzun yanında oturub ziyarətnamə oxumağa başladılar. Möhsün öz aləmində ikən uca bir səs eşitdi. Bir nəfər, "ucadan de: “la ilahə illəllah" deyir, bir neçə nəfər də tabutun altından ona səs verirdi: "La ilahə illəllah".

Möhsünün anası yanındakından soruşdu ki, kim ölüb. O, cavab verdi: "Cavan oğlan idi, balaca bir uşağı da vardı". Möhsün anasının həmin oğlan üçün narahat olduğunu və ağlamaq istədiyini görüb:

– Görürsən, ana, dünya belədir; şəhid olmasaq da, öləcəyik. Əgər mən şəhid olsam, arxayın olarsınız ki, Allah məndən razı olub, amma avtomobil qəzasında ölsəm, Allahın razı olub-olmadığı şübhəli qalacaq, – dedi və orada anasına yalvardı ki, onun şəhadəti üçün dua etsin.

Həmin gün anasının belə bir dua etməyə ürəyi gəlmədi. Ramazan ayının 21-ci gecəsində yenə ailəliklə oteldən məqbərəyə gedib "Rəzəvi" həyətində oturdular. Möhsün yavaşca xanımının çiyninə toxunub dedi: "Anama de, dua etsin, şəhid olum". Şam azanının ortası idi. Möhsünün həyat yoldaşı dedi: "Ana, Möhsün məni dəli edib, onun üçün dua elə, şəhid olsun". Ananın qəlbi sındı və yaşlı gözlərlə onun üçün dua etdi.

***

İnsan üçün heç bir şey candan dəyərli deyil. Buna görə də Allahdan ötrü canından keçən insan Ona çox əziz olur. Şəhidin ilk

qan damlası yerə tökülən kimi Allah onun bütün günahlarını bağışlayır, onu təmiz halda cənnətə daxil edir. Allah rəsulu (s) buyurub: "Hər bir məqamdan üstün məqam vardır, şəhadətdən başqa. İnsan Allah yolunda şəhadətə qovuşanda ən uca məqama nail olur".

# Polis

Ailəvi Zayəndərud çayının sahilinə getdilər, yeri döşəyib istirahət etməyə başladılar. Hamı deyib-gülürdü, Möhsünsə sakit və qərarsız idi. Bir qədər aralıda bir neçə cavan oyun havasına səs verib rəqs edirdi. Xanımı nə qədər: "Bizə nə dəxli?! Bizim onlarla işimiz yoxdur" - desə də, Möhsün sakitləşmirdi. Axırda polisə zəng vurub problemi həll etmələrini istədi.

On dəqiqədən sonra yenə polisə zəng vurub bildirdi ki, bu cavanlar insanların asayişini pozurlar, əgər siz bir iş görməsəniz, özüm tədbir görməyə məcbur olacağam. Bir neçə dəqiqədən sonra polis gəlib onlara xəbərdarlıq etdi. Polis orada olanda cavanlar da mahnı və rəqslərini dayandırdılar, amma gedən kimi yenə başladılar. Bütün ailə

üzvləri Möhsünə etiraz edib dedi: "Gördün ki, xeyri yoxdur?! Gördün ki, heç nə etmədilər?!"

Möhsün yemək yeyə-yeyə gülümsəyib dedi: "Mən bu gecə rahat yatacam, Allah yanında xəcalətli olmayacam. Ona deyəcəm ki, İlahi, mən günaha laqeyd qalmadım, əlimdən gələni etdim. Camaatla dalaşmaq olmaz, amma onlara xəbərdarlıq etmək və səhvlərinə laqeyd qalmamaq lazımdır".

***

Əgər gəminin sərnişinlərindən biri oturduğu yeri dəlsə, nə baş verər? Su yalnız həmin hissəyə dolar, yoxsa yavaş-yavaş bütün gəmiyə dolub batırar? Gəminin digər sakinləri bu iş qarşısında sakit qalsalar, nə baş verər?

Həzrət Məhəmməd (s) buyurur: "Günah etmək gəmini dəlmək kimidir. İnsanlar günah qarşısında sakit olub pis işdən

çəkindirməsələr, özləri də günahın nəticələrinə düçar olarlar".

# Sərin ayran

Dostu ilə Cəmkəran məscidinə getmişdi. Boş bir yer tapıb İmam Mehdi (ə) namazını qılmağa başladılar. Namazdan sonra Möhsün dostuna dedi:

– Məhəmməd, mən susamışam, çıxaq bayıra, bir şey içək.

Məscidin həyətindən çıxandan sonra Möhsünün gözləri qazlı içki və ayran satan səyyar satıcıya sataşdı. Möhsün ona doğru gedəndə Məhəmməd dedi:

– Gedək, mağazadan alaq; həm sərin olacaq, həm təmiz; bəlkə həm də ucuz oldu.

– Yox, bu, səyyar satıcıdır, pula daha çox ehtiyacı var. Əgər bu Allah bəndəsi də pullu olsaydı, dükan götürərdi, günəşin altında oturmazdı, – deyə Möhsün cavab verdi.

Yaxınlaşıb iki ayran aldılar. Möhsün dedi:

– Ayranı əvvəlcə yaxşı çalxalamaq lazımdır.

Ayranı çalxalamaq istəyəndə yoxsul bir kişi onlara yaxınlaşdı. Möhsün ciblərini axtardı, pul tapmadı. Gözləri ilə Məhəmmədə işarə verdi ki, pul çıxarsın. Məhəmmədin də üstündə pul yox idi. Möhsün yoxsul kişiyə baxıb: "Mənim təkcə

ayranım var, işinə yarayarsa, verim" – deyib ayranını ona verdi.

Kişi gedəndən sonra Möhsün gülümsəyə-gülümsəyə Məhəmmədə dedi:

– Ayranını yaxşı çalxala, içək.

Lakin bir neçə addım irəliləyəndən sonra başqa bir yoxsul onlara yaxınlaşdı. Məhəmməd təbəssümlə Möhsünə baxıb:

– Deyəsən, bu gün susuzluq keçirəcəyik, – dedi və yeganə ayranı da həmin yoxsula verdi.

***

İnsanlar dörd qisimdirlər:

1. Var-dövlətlərindən nə özləri istifadə edən, nə də başqalarına verən zavallılar;

2. Özləri müəyyən qədər istifadə edən, amma digərlərinə kömək etməyən xəsislər;

3. Həm özləri sərvətlərindən istifadə edən, həm də ehtiyaclılara kömək edən səxavətlilər;

4. Özlərinin ehtiyacı olsa da, əvvəlcə digərlərinə kömək edən kərəm sahibləri.

Səncə, biz hansı qisimdənik?

# Hacı Əhməd

Novruz günləri idi, qohumlar arasında get-gəl çoxalmışdı. Möhsün də xanımı ilə birlikdə növbəylə qohumlara baş çəkirdi. Bir gün növbə Zəhra xanımın dayısına çatdı. Salamlaşıb novruz bayramını təbrik edəndən sonra qonaq otağına keçdilər. Otağın bir küncündə bir qadın heykəli vardı. Möhsün başını aşağı salıb dedi:

– Dayı can, siz yoldaşımın dayısısınız, amma mən sizi öz dayım bilirəm, buna görə də çəkinmədən bir təklif irəli sürmək istəyirəm. Məncə, bu heykəli götürüb yerinə başqa bir şey qoysanız, daha yaxşı olar.

– Məsələn, nə? – deyə dayı soruşdu.

– Məsələn, Şəhid Hacı Əhməd Kaziminin şəklini. Əgər bir şəhidin şəkli qarşında olsa, günah etmək çətinləşər; çünki şəhidin sənə

baxdığını hiss edərsən, – deyə Möhsün cəld cavab verdi.

Dayının bu təklifdən xoşu gəlmədi, söhbəti dəyişmək üçün dedi:

– Bizdə Şəhid Kaziminin şəkli yoxdur.

– Mən gətirərəm, – Möhsün dedi.

Bir-iki gündən sonra Möhsün Şəhid Kaziminin şəklini dayıya verdi. Dayı çarəsiz qalıb aldı, könülsüz şəkildə taxçanın üstünə qoydu, lakin get-gedə Şəhid Kazimiyə qarşı hörməti artdı və günbəgün rəftarı yaxşılaşdı.

***

Hər hansı yolu getmək üçün o yolu tanıyan adamlarla məsləhətləşmək lazımdır. Təyinat yerinə salamat çatmaqdan ötrü öncədən o yolu getmiş şəxslərin təcrübəsindən istifadə etmək lazımdır. Doğuluşdan ölümə qədərki məsafə də hər bir insanın qət edib Allaha çatmalı olduğu bir yoldur. Bu yolda ən yaxşı örnəklərdən bir qrupu şəhidlərdir. Şəhidlər arasında Hacı

Əhməd Kazimi ən yaxşılardan biridir. Sən də böyüklərdən bu şəhid barədə soruşa, yaxud internetdə onun barəsində məlumat toplaya bilərsən.

# Su kondisioneri

İş vaxtı bitmiş, pasdarların çoxu hərbi hissədən getmişdi. Möhsün dostu ilə birgə yavaş-yavaş hərbi hissənin darvazasına tərəf gedirdi. Söhbət etdikləri yerdə dostunun gözü namazxananın arxasındakı kondisionerə sataşdı. Bir anlığa hər ikisi dayandı. Kondisionerin altından su damır, tez-tez yerə tökülürdü. Dostu dedi:

– Ustalar gediblər. Onlar sabah gələnə qədər çoxlu su hədər gedəcək.

– Narahat olma, hacı, – deyə Möhsün çantasını ona verdi, – indi düzəldərəm.

Kondisioner təxminən 3 metr hündürdə idi. Yaxında nərdivan da yox idi. Möhsün əllərini divara atıb çox tezliklə yuxarı qalxdı, bir neçə dəqiqə ərzində su kondisionerinin

şlanqını düzəltdi. Dostu isə hələ də onun düz divardan necə dırmaşdığına təəccüb edirdi.

***

Həmvətənlərimizdən yüz minlərlə insanın düzgün və yetərli qidalanma imkanı yoxdur. Ölkəmizdə çoxlu uşaqlar həmişə köhnə paltarlar geyirlər. Çoxlu şagirdlər məktəb ləvazimatını almağa çətinlik çəkirlər. Ölkənin çoxlu bölgələrində su çatışmazlığı var. Bu problemlərin ən mühüm səbəblərindən biri israfçılıqdır. Əgər israfçılıq etməməyə alışa bilsək, çoxlu həmvətənlərimizin problemləri həll olar. Yadımızda qalsın ki, israf Allahın gözündən düşməyimizə səbəb olan günahlardan biridir. İmam Sadiq (ə) yarısı yeyilmiş meyvəni evdən zibil kimi atdıqlarını görəndə hirslənib buyurmuşdu: "Siz toxsunuzsa, olun, amma bilin ki, çox adam acdır. Yaxşı olardı ki, onu ehtiyaclılara verəydiniz!"

# Cərimə

Dostu ilə qərara gəldilər ki, nə söyüş söysünlər, nə də kimisə təhqir etsinlər. Razılaşdılar ki, dillərini idarə etmək üçün bir-birinə nəzarət etsinlər, kimisə söysələr, ya da təhqir etsələr, nəzir qutusuna 500 tümən pul salsınlar və söyən adamın boynunun ardından bir sillə vurulsun; söyüşün də ciddi, yoxsa zarafata verilməsinin fərqi yoxdur.

Bir gün Möhsünün dostu hirslənib özünü söydü. Möhsün onun boynunun ardından iki sillə vurub dedi: "Tez ol, 1000 tümən sədəqə çıxar".

– Necə yəni? Mən özümü də söyə bilmərəm?! – dostu dedi.

– Bu cərimələr ondan ötrüdür ki, pis əxlaqdan uzaqlaşmağa vərdiş edək. Özünü, yoxsa başqasını söymənin nə fərqi var?! Həm

də özünü söydüyünə görə ikiqat cərimələnirsən; bir dəfə söydüyünə, bir dəfə də söyüldüyünə görə.

***

İmam Sadiqin (ə) bir dostu vardı, həmişə onun yanında olurdu. İyirmi ilə yaxın idi ki, imam haraya gedirdisə, ona yoldaşlıq edirdi. İmamla dostluğu o qədər məşhurlaşmışdı ki, hamı onu "İmam Sadiqin (ə) dostu" ləqəbi ilə tanıyırdı.

Həmin şəxs bir gün imamla bazara getmişdi. Bazarın ortasında bir-iki dəfə qulluqçunu çağırdı, amma cavab eşitmədi. Kişi əsəbiləşib qulluqçunun anasını söydü. İmam narahat halda əlini alnına vurub dedi:

– Vay-vay! Anasını söydün?!

– Anası müsəlman deyil, – kişi cavab verdi.

– Müsəlman olmasa da, sənin onu söyməyə haqqın yoxdur. Bundan sonra mənə yoldaşlıq eləmə, – imam buyurdu.

# Təbiət günü

Çoxlu müzakirələrdən sonra qərara gəldilər ki, baharın on üçüncü günündə, yəni Təbiət günündə xanımının babasıgilin kəndinə getsinlər. Maşınlar bir-birinin ardınca kəndə yola düşdü. Sayları çox idi, həyətdə hamının oturmasına yer yox idi. Yandakı həyətə də bir palaz sərdilər. Möhsün soruşdu:

– Bu torpaq kimindir?

– Biz nə bilək?! – qohumlardan biri dilləndi. – Hər halda, kiminsə yeridir.

– Mən ora ayağımı qoya bilmərəm; bəlkə, sahibi razı deyil, – Möhsün dedi.

Hamı gülməyə başladı və hərə bir tərəfdən dilləndi:

– Bu ki kiminsə haqqına girmək deyil. Məgər biz torpağı yeyəcəyik?! Yarım saat oturub gedirik də.

Hamı qonşunun torpağına girib oturdu, Möhsünə isə nə qədər israr etdilərsə, razılaşmadı.

***

Şəkər dünyanın hər yerində şirindir. Bütün duzlar şordur. Mümkün deyil ki, dünyanın harasındasa yağlı olmayan bir yağ olsun. Yaxşı iş də belədir; bir iş yaxşı olsa, dünyanın hər yerində və bütün zamanlarda yaxşı olar. Cəsarətli insan bir şeyin yaxşı olduğunu biləndə heç kimə əhəmiyyət verməz, digərlərinin istehzasına dözər, amma yaxşı işini tərk etməz. Yadımızda qalsın ki, cəsarət yalnız döyüş zamanına məxsus deyil.

# Könüllü yardımçılıq

Bəsici dostları ilə Vəzvə kəndinə əhaliyə kömək etməyə getmişdi. Bəzi uşaqlar evləri təmir edir, bəziləri uşaqlara dərs keçirdi.

Möhsün bir neçə uşağı kölgədə toplayıb onlarla danışırdı. Hava çox isti idi, uşaqlar bir-birinin ardınca su içirdilər, o isə suya dilini də vurmurdu.

Günortaya az qalırdı. Möhsün kəndin bəzi qocaları ilə söhbət edirdi. Dostu ona bir stəkan su apardı, o isə içmədi. O, nəzir etmişdi ki, oruc halda xalqa xidmət etsin. Əlbəttə, su içməməsinin yeganə səbəbi oruc olması deyildi. O, yardımçı uşaqların qablaşdırılmış mineral su, kənd əhalisinin isə bulaşıq kənd suyu içdiyinə görə narahat idi. O deyirdi: "Nə üçün bizimlə kənd əhalisi

arasında fərq olmalıdır?! Mən nə qədər ki burdayam, kəndin suyundan içəcəyəm".

O, iftar vaxtı bir qədər suyu duz və limon suyu ilə dezinfeksiya edib içirdi. Get-gedə kənd əhalisi də içməli suyu dezinfeksiya etmək üçün onun üsulundan istifadə etməyə başladı.

***

Mömin insanlar digərlərinin problemlərinə laqeyd qalmır, özlərini əziyyətə salıb onların çətinliklərini aradan qaldırmağa çalışırlar. Həzrət Məhəmməd (s) buyurub: "İmanlı insanların bir-biri ilə əlaqəsi bir bədən üzvlərinin əlaqəsi kimidir. Bədənin bir üzvü xəstələnəndə digər üzvlər də qızdırıb yuxusuz qaldığı kimi, bir mömin insan çətinliyə düşəndə digər möminlər də narahat olurlar".

Sədi Şirazi belə deyir:

Adəm övladları bir bədən üzvləridir, çünki bir şeydən yaranmışlar,

Əgər bir bədən üzvü ağrısa, digər üzvlər də qərarsız olarlar.

# Partlayış dalğasına düşmüş uzunqulaq

Möhsünlə digər döyüşçülər İŞİD terrorçularını böyük miqyasda geri çəkilməyə məcbur etdilər. Döyüşçülər irəliləyə-irəliləyə təxminən bütün əhalisi qaçmış bir kəndə çatdılar. Kənd boş idi, küçələrdə bir qədər inək və qoyun gəzişirdi. Birdən Möhsünün gözləri səndələyə-səndələyə yeriyən bir uzunqulağa sataşdı. Minmək üçün onu dostunun yanına gətirdi.

Uzunqulaq çox tərpənir, heç kimi minməyə qoymurdu. Möhsünün dostu yorulub dedi: "Bu uzunqulaq çox eşşək heyvandır, minməyə qoymur. Mən istəmədim". Möhsünsə əl çəkmir, mütləq minmək istəyirdi. O zarafatla gülümsəyib dedi:

– Mənim bir ixtisasım da çətin şəraitlərdə uzunqulaq minməkdir. Bu ixtisası könüllü yardımçılarla kəndlərə gedəndə öyrənmişəm.

Möhsün bir qədər əlləşəndən sonra, nəhayət, uzunqulağa mindi, amma düz-əməlli oturmamış heyvan şıllaq atıb onu yerə saldı. Möhsün paltarlarının tozunu çırpa-çırpa dedi:

– Bu dilsiz-ağızsız heyvanı incitməyək; deyəsən, raketlərin səsindən partlayış dalğasına düşüb.

***

Şəhid Hacı Qasim Süleymani, Şəhid Höcəci, Şəhid Hadi və digər böyük şəhidlər hamı kimi deyib-gülür, gəzməyə gedir, halal ləzzətlərdən istifadə edirdilər. Onların böyük olmasının sirri Allahı unutmamaqda və günahdan uzaqda durmaqdadır. Şəhidlər günahı həyatlarından silmişdilər, nə zamansa istəmədən səhvə yol verəndə də tez tövbə edirdilər.

# Kərpic maşını

Dostları ilə birlikdə küçədə dayanmışdı. Darıxır, məşğuliyyət axtarırdılar. Uşaqların hərəsi bir oyun təklif edirdi. Danışdıqları yerdə qonşunun evinin yanında kərpic dolu bir Vanet yük maşını dayandı. Qonşu maşının qapısını açıb təkbaşına kərpicləri boşaltmağa başladı.

Möhsün dostlarından ayrılıb qonşuya yaxınlaşdı.

– Kömək lazımdır? – dedi.

Qonşu sevindi. Uşaqlar da Möhsünə qoşuldular və tez bir zamanda maşın boşaldı. Qonşu kişi uşaqlara təşəkkür edib hərəsinə yüz tümən pul verdi. Səkkiz-doqquz yaşlı Möhsün və dostları mağazaya yollandılar, hərəsi bir qazlı içki, bir keks və bir qədər alça aldı.

***

Uşaq və yeniyetmə bekar qalıb faydalı bir iş görməyəndə Allah ondan inciyir. İnsan faydalı işlə məşğul olanda isə şeytan hirslənir. Şeytan bekar adamları sevir, pis işlərə vadar etmək üçün həmişə onlara yaxınlaşır. Biz Allahı, yoxsa şeytanı sevindirməyi özümüz seçməliyik. Kitab oxumaq, idmanla məşğul olmaq, ata-anaya kömək etmək və digər belə işlər Allahı sevindirir, tənbəllik, bekarlıq, yalan danışmaq, pis sözlər söyləmək, israf etmək və bu kimi işlər də şeytanı.

# Oğluma

Salam, Əli! Salam, əziz oğlum!

Səninlə bir neçə kəlmə danışmaq istəyirəm.

Bağışla, oğlum, bağışla ki, uşaq yaşında səni tərk edib getdim. Əgər biz getməsəydik, həzrət Zeynəbin məqbərəsinə hörmətsizlik edərdilər...

Əli can, həyat günbəgün çətinləşir, günah günbəgün inkişaf edir. İndi təmiz qalmaq öncəki zamanlardan çox çətinləşib. İmam Mehdinin (ə) zühuru yaxınlaşdıqca fitnələr daha da çoxalacaq, şeytan güclənəcək.

Sən özündən çox ehtiyatlı olmalısan; təkcə özündən yox, hətta ətrafındakılardan da ehtiyatlı olmalısan. Adını Əli qoydum ki, mövlan, rəhbərin və idealın Əli olsun!

İstəyirəm, Əli kimi elə yaşayasan ki, İmam Mehdinin (ə) əsgərlərindən biri olasan, elə indidən özün, təhsilin, peşən, həyat seçimin, qarşıdakı yolun üzərində işləyəsən, dostlarının və nəzərdə tutduğun gələcəyinin seçimində diqqətli olasan.

Mən həmişə səni xatırlayıram, həmişə başının üstəyəm. İnşallah, şəhid olsam, həyatın boyu həmişə səni izləyəcək, ata kölgəsinin yoxluğunu hiss etmənə qoymayacağam. Əgər şəhid olmasam da, oraya gələcək və böyüyənə qədər özüm yanında olacağam.[2]

---

[2] Şəhid Höcəcinin oğluna vəsiyyətnaməsindən bir parça

# Suallar

1. Şəhid Höcəci İŞİD-lə vuruşmaq üçün hansı ölkəyə getdi?

a) Əfqanıstan

b) Suriya

c) İraq

ç) Türkiyə

2. Şəhid Höcəcinin dostu Hüseynə dərsi nə idi?

a) Heç kimin qeybətini eləmə

b) Yalan danışma

c) Namaz qıl

ç) Heç biri

3. Şəhid Höcəci akvaparka niyə gec getdi?

a) Dostu ilə görüşü vardı

b) Hovuzda qələbəlik vardı

c) Namazı ilk vaxtında qılmaq istəyirdi

ç) Hamısı

4. Təxti-fulad məzarlığı hansı şəhərdə yerləşir?

a) Şiraz

b) Qum

c) İsfahan

ç) Nəcəfabad

5. Şəhid Höcəci uşaqlara neçə top aldı?

a) İki

b) Dörd

c) Beş

ç) Üç

6. Şəhid Höcəci çox sevdiyi adamları necə çağırırdı?

a) Xalaoğlu

b) Qardaş

c) Dost

ç) Hacı Əhmədin balası

7. Şəhid Höcəci həyat yoldaşının dayısına təklif etdi ki, kimin şəklini evində divara vursun?

a) Şəhid Kazimi

b) Şəhid Səyyad Şirazi

c) Şəhid Şirudi

ç) Şəhid Hadi

8. Şəhid Höcəci nə üçün dostunu cərimələdi?

a) Yalan danışmaq

b) Söyüş vermək

c) Digərlərini ələ salmaq

ç) Heç biri

9. Şəhid Höcəci Cəmkəranda yoxsul kişiyə nə verdi?

a) Qazlı içki

b) Sendviç

c) Ayran

ç) Mineral su

10. Şəhid Höcəci yardım məqsədilə hansı kəndə getmişdi?

a) Vəzvə

b) Mahmudabad

c) Furud

ç) Əkbərabad